# EKOLOJİ SİYASƏT – MİLLİ İNKİŞAF STRATEGİYASININ ƏSAS AMİLLƏRİNDƏN BİRİ KİMİ

**Ziba Ağayeva**

*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu, Bakı*
*ziba.agayeva57@gmail.com*

XX əsrin 80-cı illərinin sonlarından başlayaraq, dünyada siyasi sahədə köklü dəyişikliklərin təsiri altında ekoloji problematika ciddi sosial-humanitar və siyasi əhəmiyyət kəsb etməyə başlayır. Artıq 90-cı illərdən etibarən müasir anlamda beynəlxalq ekoloji siyasətin formalaşması prosesinin dinamikası məsələnin vacibliyini bir daha sübut edir. Bu illər ərzində ekoloji siyasət sürətlə istər beynəlxalq, istərsə də dövlətdaxili səviyyələrdə müstəqil sahəyə çevrilir. Ekoloji siyasətin ümumi dövlət siyasətinin (hərbi, mədəni, iqtisadi, sosial, elmi-texniki, informasiya və s.) müstəqil sahəsinə çevrilməsi prosesi inkişaf etmiş ölkələrdə ekologiya sahəsində baş qaldıran böhranın ilk təzahürlərinin yaranması ilə bağlı XX əsrin 70-80-cı illərindən başlayaraq daha böyük vüsət alır.

Keçən əsrin ən əlamətdar hadisələrindən olan Sovetlər İttifaqının süqutu Azərbaycan Respublikasına azadlıq və müstəqillik gətirsə də, özüylə birlikdə ölkəni siyasi kataklizmaların və ekoloji-iqtisadi böhranın məngənəsinə salır. On illər ərzində formalaşmış iqtisadi, siyasi, mədəni, ekoloji və digər əlaqələr Azərbaycan üçün böyük itkilərlə nəticələnir. O dövrdə respublikanı ümumi ekoloji böhran vəziyyətindən çıxarmaq, sonrakı çirklənmələrin qarşısını almaq, təbiətin mühafizəsi və təbii ehtiyatların səmərəli istifadəsinə nail olmaqdan ötrü ətraf mühitin mühafizəsinin kompleks sxeminin hazırlanması zərurəti yaranır. Belə sxemin hazırlanmasında məqsəd təbiətin mühafizəsinin uzunmüddətli strategiyasının hazırlanması, təbii mühitin əsas komponentlərinin – havanın, suyun, torpaq və enerji ehtiyatlarının, bitki və heyvanlar aləminin mühafizəsi üçün tədbirlər proqramının hazırlanması zərurəti idi. O dövrdə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası bütün bu çətinliklərə tab gətirir. 1993-cü ildə hakimiyyətə qayıdan Heydər Əliyev vəziyyəti dəyişmək üçün daxildə islahatların aparılmasına nail olur. Daxili qüvvələri öz xarizmatik şəxsiyyəti ətrafında toplamağı bacaran Ümummilli Lider Azərbaycan xalqında baş qaldıran inamsızlığı, ruh düşkünlüyünü aradan qaldırmağa müvəffəq olur. Azərbaycan dövləti müharibə şəraitində konseptual mövqe sərgiləyərək, ölkənin inkişafının mahiyyətini, məqsədini və perspektivlərini müəyyənləşdirir.

Hələ 17 avqust 1993-cü ildə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin "Energetika, ekologiya, iqtisadiyyat" ikinci beynəlxalq simpoziumunun iştirakçılarına yekun sözündə "biz ekoloji dövr adlanan yeni dovrün sınaqlarından layiqincə çixacağıq" [2, s. 81] ifadəsi bu istiqamətdə əsaslı işlərin aparılmasına güclü təkan verir. Məhz bu dövrdən başlayaraq ümumdövlət siyasətinin üzvi tərkib hissələrindən biri də Azərbaycan Respublikasının vahid milli ekoloji siyasətinin qəbul edilməsi olur.

Ekoloji siyasətin həyata keçirilməsinin təzahürü kimi respublikamızda Avropa standartlarına uyğun müvafiq qanunvericilik bazasının yaradılması, ətraf mühit üzrə Dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi yolu ilə prioritet layihələrin tədricən realizə olunması məsələləri gündəmə gəlir. Bu siyasətin əsasında dövlətin rəsmi şəkildə qəbul edilmiş, ölkənin ekoloji problemlərinin həllinə yönəldilmiş ümumi konsepsiyası durur. Bu siyasət bilavasitə hakimiyyət orqanlarının ölkənin ictimai-iqtisadi inkişaf problemlərinin bütöv kompleksinin ekoloji aspektlərinə münasibətini müəyyənləşdirir.

Azərbaycan Respublikasında ekoloji siyasətin hüquqi əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulur. Onun rəhbərliyi altında 12 noyabr 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyasında ilk dəfə olaraq "hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ" təsbit edilir (39-cu maddə) [1]. Bu maddənin müddəalarının həll olunmasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Milli Məclisi çoxsaylı vacib qanunlar qəbul edir.

Heydər Əliyevin 23 may 2001-ci il 485 nömrəli əmri ilə yeni Ekologiya və Təbii Sərvətlər Nazirliyi təsdiq edilir. Bu əmrlə ekologiyanın mühafizəsi sahəsində bütün inzibati çətinliklər aradan götürülmüş olur. 18 sentyabr 2001-ci il Heydər Əliyevin əmri ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Əsasnaməsinin təsdiqi isə Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasına və ekoloji təhlükəsizliyin təmin edilməsinə yönəldilmiş vahid ekoloji siyasəti müəyyənləşdirir. Bu məqsədlərə nail olmaq istiqamətində respublikamız

üçün üstün əhəmiyyətli ekoloji problemlər müəyyənləşdirilir və 1998-ci ildə Azərbaycan Respublikasının hökuməti tərəfindən təsdiq olunmuş Ətraf Mühiti Mühafizə üzrə Milli Fəaliyyət Planında öz əksini tapır [3].

Bu sənəd bilavasitə dövlətin ekoloji siyasətinin məzmununu, eləcə də hakimiyyət orqanlarının ölkənin ictimai-iqtisadi inkişaf problemlərinin bütöv kompleksinin ekoloji aspektlərinə münasibətini müəyyənləşdirir və mahiyyət etibarilə ekoloji siyasətin özündə cəmləşdirdiyi iki vacib amili: ölkə daxilində ekoloji siyasətin reallaşdırılmasının və həyata keçirilməsinin yüksək effektivliyinin təmin olunmasının məsuliyyətini şərtləndirir.

Həmin vaxtdan təbii ehtiyatlardan səmərəli istifadə və ekoloji tarazlığın qorunması dövlətin daimi diqqət mərkəzinə gətirilir və ölkəmiz ekologiya və ətraf mühitin mühafizəsi sahəsində böyük nailiyyətlər əldə etməyə başlayır. Azərbaycan Respublikası beynəlxalq əlaqələrini xeyli genişləndirərək, bir çox dövlətlərlə hökumətlərarası birgə əməkdaşlıq sazişləri imzalayır, ölkənin strateji maraqları baxımından çox mühüm beynəlxalq konvensiyalara qoşulur.

Ekoloji siyasətin həyata keçirilməsi istiqamətində müvafiq milli proqramlar hazırlanır və bir sıra mühüm tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2003-cü il 18 fevral tarixli 1152 saylı Sərəncamı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanmış "Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair" Milli Proqram, "Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair Milli Proqram" təsdiq edilir [4].

Ölkənin ümumi inkişaf strategiyasının ayrılmaz hissəsi olan bu Milli Proqramın işlənməsi ətraf mühitin qorunması sahəsində fəaliyyətin koordinasiyasının gücləndirilməsi yolu ilə milli, regional və beynəlxalq səviyyələrdə təbii ehtiyatların mühafizəsi, elmə əsaslanan inkişaf prinsiplərinin tətbiqi, indiki və gələcək nəsillərin maraqlarını təmin edən ölkənin iqtisadi və insan resurslarının istifadəsində davamlılığın təminatına yönəlir. Ekoloji baxımdan dayanıqlı sosial-iqtisadi inkişaf üzrə milli proqramın həyata keçirilməsi üçün əlaqədar dövlət qurumlarının və qeyri-dövlət təşkilatlarının fəaliyyətinin koordinasiyasının gücləndirilməsi vacib şərtlərdən birinə çevrilir [3].

Qeyd etmək lazımdır ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında formalaşdırılan ekoloji siyasət ölkənin ekoloji böhrandan çıxarılmasına, müxtəlif ekoloji məqsədlərə əsaslanan və onların həyata keçırılməsinə imkanlar yaradan gələcəyə istiqamətlənmiş bir siyasət kimi əsas strateji mahiyyət daıyır və cəmiyyətlə təbiət arasında harmoniyanın qorunub saxlanmasına xidmət göstərirdi. Müstəqilliyimizin ilk illərindən həyata keçirilən bu məqsədyönlü siyasət özünün konkret məqsədləri ilə də seçilirdi. Bu məqsədlər sırasında ölkənin sosial-iqtisadi inkişaf prosesində təbiətə mənfi antropogen təsirlərin qarşısının alınması, əsas neqativ təsirlərin aradan qaldırılması, əvvəllər təbiətə münasibətdə buraxılmış səhvlərin düzəldilməsi, həmçinin ətraf mühitin yaxşılaşdırılması, ölkə üçün mühüm elmi və mədəni dəyərə malik olan bir sıra təbii obyekt və ekosistemlərin qorunması əsas yer tuturdu.

Azərbaycan Respublikasının ən çətin dövrlərində Ümummilli Lider Heydər Əliyev tərəfindən formalaşdırılan və təməli möhkəm əsaslar üzərində qoyulan ekoloji siyasət bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda beynəlxalq şəraitin kifayət qədər mürəkkəb olması, bu kontekstdə yaranan qlobal dəyişikliklər və transformasiyalar xüsusilə Cənub-Şərqi Avropada və Qafqazda iqtisadi artımın güclənməsinə, infrastrukturun inkişafı və regional təhlükəsizliyin qorunmasına, ölkəmizdə işğaldan azad olunmuş ərazilərin bərpası və Böyük Qayıdışla əlaqədar proseslərə, müasir dövrün çağırışlarına, ictimai-siyasi və iqtisadi düşüncə tərzinə uyğun şəkildə yenidən nəzər salınmasını, proseslərə yeni münasibətin sərgilənməsini tələb edir. Daimi qarşılıqlı əlaqədə olan, bir-birinə qarşılıqlı təsir göstərən bu amillər və müasir geosiyasi vəziyyət postmüharibə dövründə Azərbaycan Respublikasının bütün sahələrdə və xüsusilə sosial-iqtisadi sahədə müasir dünya çağırışlarına cavab verə biləcək milli prioritetlərinin davamlı inkişafını şərtləndirir. Bu nöqteyi-nəzərdən dünyada baş verən son dərəcə mürəkkəb şəraitdə postmüharibə dövrünü yaşayan ölkəmiz üçün əsas məsələ güclü dövlət, inkişaf etmiş iqtisadiyyat və Ümumdünya Əmək imkanlarına əsaslanan Rifah Cəmiyyətinin yaradılmasıdır. Bu işdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin irəli sürdüyü məqsədyönlü siyasətin rolu əvəzsizdir.

1997-ci ildə Əhalinin Radiasiya Təhlükəsizliyi Haqqında Azərbaycan Respublikasında ekoloji siyasətin hüquqi əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Onun rəhbərliyi altında 12 noyabr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının yeni Konstitusiyasında ilk dəfə olaraq "hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ" təsbit edildi (39-cu maddə). Bu maddənin müddəalarının həll olunmasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Milli Məclisi çoxsaylı vacib qanunlar qəbul etdi.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 99 s.

2. Əliyev H. Müstəqilliyimiz əbədidir. Birinci kitab. Bakı: Azərnəşr, 1997, 608 s.
3. http://www.eco.gov.az/b-gorulenishler.php